**BAKI DÖVLƏT UNİVERSİTETİ**
**FİLOLOGİYA FAKÜLTƏSİ**

**Təsdiq edirəm:**
**Filologiya fakültəsinin dekanı**
**Dos.E.H.Məmmədov**

**Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının elmi-tədqiqat plan işlərinin yerinə yetirilməsi haqqında**

# MƏLUMAT

**BAKI – 2017**

## 1. GİRİŞ

## 2. STRUKTUR VƏ ŞTAT CƏDVƏLİ (professor- müəllim heyətinin yaş göstəriciləri əlavə etməklə)

**Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının 2017–ci il elmi–tədqiqat planının yerinə yetirilməsi haqqında**

**Məlumat**

2017- ci ildə kafedrada ştat üzrə 14 müəllim işləyir. Onlardan 9-u tam ştatda, 5-i 0,5 (yarım) ştatdadır. Ştatda olan müəllimlərdən 10 -nin elmi dərəcəsi var. Bir nəfər elmlər doktoru və 1professor, 1 nəfər fəlsəfə üzrə elmlər doktoru və dosent, 10 nəfər filologiya üzrə fəlsəfə doktoru və dosent, 1 nəfər filologiya üzrə fəlsəfə doktoru və müəllim, Ştatda olan müəllimlərdən ikisinin elmi dərəcəsi və elmi adı yoxdur.Kafedranın 2017-ci ilə aid elmi iş planı filologiya üzrə metodika məsələlərinə həsr edilmişdir. Bununla bərabər, dilə və ədəbiyyata aid nəzəri mövzulara da yer verilmişdir.

2017- ci ildə kafedranın müəllimləri və elmi işləri haqqında.

1. H.A.Əsgərov – 1959,Fil.e.d., professor, 0,5 ştat
2. R.İ.Quliyeva– 1947, f.ü.f.d, dosent, tam ştat
3. R.D. Mahmudova – 1950, f.ü.f.d., dosent, tam ştat
4 M.Ə.Qurbanova - 1953, f.ü.f.d., dosent, tam ştat
5. Ə.H. Cavadov - 1956, f.ü.f.d., dosent, tam ştat
6. İ.İ. Şəmsizadə – 1959, f.ü.f.d, dosent, tam ştat
7. M.Ə.Abdullayeva – 1961, fəl.e.d., professor, tam ştat
8. S.Ş.Mustafayeva – 1971, f.ü.f.d., dosent tam ştat
9. Ş.C.Abdullayeva – 1972, f.ü.f.d., dosent, tam ştat
10.Ş.X.Əliyeva – 1962, p.ü.f.d.,dosent,0,5 ştat
11. E.H.Məmmədov – 1973, f.ü.f.d., dosent, 0,5 ştat
12.S.F.Nağıyeva – 1972, f.ü.f.d., müəllim , 0,5 ştat
13. S.H.Rzayeva - 1950, müəllim, tam ştat
14.G.N.Abbasova – 1956, baş müəllim,tam ştat

**Planda nəzərə alınmış problemlər:**

1.Azərbaycan dili və ədəbiyyatının tədqiqinin nəzəri və praktik məsələləri
2.Azərbaycan dili və ədəbiyyatının tədrisi məsələləri.

## 3.KAFEDRALARDA APARILAN ELMİ-TƏDQİQAT İŞLƏRİNİN ƏSAS İSTİQAMƏTLƏRİ, ADI, SAYI, QISA ANNOTASİYASI VƏ YERİNƏ YETİRİLMƏSİ

**İş. Dövlətçilik və dilin funksionallığı.**

**Mərhələ3. Qloballaşma şəraitində Azərbaycan dilinin dövlət dili kimi inkişafı və ədəbi dil normalarının qorunması.**

**1. İcraçı: Prof. H.A.Əsgərov.**

Elmi işdə müstəqillik illərində Azərbaycan dilinin tədrisi və tətbiqi işinin genişləndirilməsinin 2003-cü ilə kimi davam edən və ulu öndər Heydər Əliyevin adı ilə bağlı birinci dövrü, bu dövrdə Azərbaycan dilinin tədris, tətbiq və inkişaf etdirilməsinə dövlət qayğısının artırılması, ana dilimizin elmi tədqiqinin genişləndirilməsi, həmçinin bu işə nəzarətin gücləndirilməsi məqsədilə imzalanmış bir neçə tarixi fərman və sərəncamdan bəhs edilmişdir.

Dövlətin müstəqillik illəri ilə bağlı dil siyasətinin ikinci mərhələsi 2004-cü ildən günümüzə qədərki dövrü əhatə edir ki, bu dövrdə Azərbaycan dilnin tədrisi və tətbiqinin genişləndirilməsi Prezident İlham Əliyevin 2013-cü il 9 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı" ilə yeni mərhələyə daxil olmuş və Azərbaycan dilinin tədrisi və təbliği sahəsində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi də bu dövrün əsas özəlliklərindəndir.

İşdə Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsi və azərbaycançılıq məfkurəsi əsasında hərtərəfli inkişafı baxımından gənc nəslin anna dilinə sevgi ruhunda tərbiyə olunması, ədəbi dil normalarına ciddi surətdə əməl edilməsinin nə dərəcədə önəmli olması geniş şəkildə təhlil olunur.

**2017-ci ildə çap olunmuş əsərlərin siyahısı**

**1.** Peşə –sənət leksikası, termin və ümumişlək sözlər. Filologiya məsələləri, Bakı.2017. səh.3-14.(məqalə)

2. Dissertasiyaya rəhbərlik 2017- ci ildə (40 bal).

**3.**İki Konfranslarda təşkilində iştirak .

**İş. «Azərbaycan dili dərslərində ənənəvilik və ona müasir yanaşma»**

**Mərhələ3. Kurikulumda islahatlar, yeni kurikulum standartlarının yaradılması**

**2. İcraçı: dos. R.İ.Quliyeva**

Elmi-plan işində ilk kurikulumun 1918-ci ildə yaranmasından, böyük bir zaman ərzində dünya miqyasında kurikulum haqqında ideyaların genişlənməsindən, müasir dövrdə artıq təhsil nəzəriyyəsi səviyyəsində formalaşmasından bəhs edilir. Göstərilir ki, ümumi təhsilin keyfiyyəti və real tələbatlara uyğunlaşmasının başlıca motivini kurikulum islahatı təşkil edir. Mütərəqqi təhsil təcrübəsinin göstəricisi olan kurikulum təlim prosesi ilə bağlı bütün fəaliyyətlərin səmərəli təşkilinə, məqsədyönlü və ardıcıl həyata keçirilməsinə imkan yaradan konseptual sənəddir. Bu elə bir proqram sənəddir ki, şagirdlərin vacib olan nəyi bilmələri, nəyi bacarmaları və necə şəxsiyyət olmaları məsələlərini diqqətdə saxlayır.

**2017-ci ildə çap olunmuş əsərlərin siyahısı**

1. Azərbaycan dilində səs və fonem münasibətəlrinə dair (Akad.A.A.Axundovun elmi yaradıcılığı əsasında).Akademik Ağamusa Axundovun 85 illiyinə həsr olunmuş Beynəlxalq Elmi konfransın materialları. «Elm» nəşiryyatı, Bakı, 2017, səh. 255- 258. (məqalə)

2.Azerbaycan Türkçesinde Fiil Çatıları üzerine bir değerlendirme.VIII Uluslararası Türk Dili Kurultayı. Bildiri Özetleri.Ankara, 2017, səh.121- 122 (tezis).

3.Rus dili leksikasında işlənən Türk mənşəli sözlər.M.P.Vaqifin 300 illiyinə həsr olunmuş Beynəlxalq Elmi konfransın materialları.BDU nəşri, 2017.(Səidə Nağıyeva.(Məmmədova) səh.308-311.

4. VIII Uluslararası Türk Dili Kurultayı. Bildiri Özetleri.Ankara, 2017-ci il Rəhilə Quliyeva vu kurultayda Ankarada iştirak edib.

**İş. Tələbələrin şifahi nitqinin inkişaf etdirilməsi yolları.**

**Mərhələ 3. Yazılı rabitəli nitqin inkişafı.**

**4. İcraçı: dos. R.D.Mahmudova**

«Xarici tələbələrin yazılı rabitəli nitq vərdişlərinin inkişaf etdirilməsi» adlı Elmi-plan işində tələbələrin yazılı rabitəli nitqini inkişaf etdirən bir sıra təlim üsullarından bəhs edilir, müxtəlif yazı növlərinin (imla, inşa, ifadə, referat, protokol, esse və s.) aparılması qaydaları göstərilir və qeyd olunur ki, əməli və yaradıcı yazılar tələbələrin müstəqil fikir yürütmək bacarığını təkmilləşdirir, dünyagörüşünü formalaşdırır və savadlı yazı yazmaq mədəniyyəti aşılayır.

Elmi-plan işində eyni zamanda durğu işarələrinin düzgün işlədilməsi qaydaları, onların düzgün yazı bacarıqlarına yiyələnməkdəki rolu, nitq mədəniyyətinin inkişafındakı müstəsna əhəmiyyəti nəzərə çatdırılır. Şifahi və yazılı nitq arasında olan fərqli və oxşar xüsusiyyətlər araşdırılır. Orfoqrafiya qaydalarının sabitliyindən, onun əhəmiyyətindən, tələbələrin yazılı rabitəli nitqinin inkişafında onun müstəsna rolundan bəhs edilir. Orfoqrafiya qaydalarının sabitliyinin yazı təliminin inkişafı üçün çox vacib amil olduğu nəzərə çatdırılır.

**2017-ci ildə çap olunmuş əsərlərin siyahısı**

1. Ulduz ömürlü insan (Prof. Y.Seyidovun xatirəsinə həsr olunmuş kitab). Bakı: Elm və təhsil, 2017, 351 s.ç.v.22
2. Azərbaycan dilinin lüğətçilik tarixi (XI-XI əsrlər). Bakı: Elm və Təhsil, 2017, 78 s. ç.v.5 (kitab).
3. Ulduz ömürlü insan. Kitaba Ön söz yazılıb (Prof. Y.Seyidovun xatirəsinə həsr olunmuş kitab).

**İş. Azərbaycan dilinin zənginləşdirilməsinin lüğətlərdə əksi.**

**Mərhələ3. Türk mənşəli sözlər hesabına dilimizin zənginləşdirilməsi, lüğətlərdə əksi**

**4.İcraçı: M.Ə.Qurbanova**

Plan işində Azərbaycan dilinə türk dilindən keçən sözlər və onların dilimizin lüğət tərkibinin zənginləşdirilməsindən danışılır. Hazırda ciddi zərurət yaradan problemlərdən biri də dilimizin zəngin və rəngarəng olan lüğət tərkibinin araşdırılmasıdır.

Tədqiqat nəticəsində məlum olmuşdur ki, XX əsrin əvvəllərindən, təxminən 20-30 - cu illərə qədər dilimizin lüğət tərkibində, mətbuat və bədii əsərlərdə türk kəlmələri yetərincə işlənsə də sonradan bu proses dayandırıldı. Respublikamız 70 il Sovet imperiyasının tərkibində olduğu zaman rus dilinin təsiri gücləndi və rus sözləri daha geniş işlənmə tezliyi qazandı. Müstəqillik qazandıqdan sonra, Türkiyə ilə əlaqələrimiz sürətlə inkişaf etdiyindən bugünkü gün dilimizə türk dilindən yeni-yeni sözlərin keçməsi lüğət ehtiyatını, məhz, türk mənşəli sözlər hesabına zənginləşdirir.

**2017-ci ildə çap olunmuş əsərlərin siyahısı**

| № | Elmi əsərin adı | Əsərin növü | Nəşriyyatın, jurnalınadı | Digərmüəllif. |
|---|---|---|---|---|
| 1 | "Ulduz ömürlü insan" | kitab | "Elm və təhsil", Bakı, 2017, 22 ç.v. | R.Mahmudova ilə birgə |
| 2 | Mir Həmzə Seyid Nigarinin əsərlərində işlənən yer adları | məqalə | III Beynəlxalq Həmzə Nigari Türk dünyası Mədəni İrsi Simpoziumu–materialları. 17-18.05.2017, Şamaxı, Azərbaycan, səh. 572-577 | |
| 3 | "Azərbaycan dili və nitq mədəniyyəti" | məqalə | "Azərbaycan dili və ədəbiyyatı tədrisi", Bakı, 2017, №1, səh. 79 | |
| 4 | "Tapşırıq, tərcümə və oxu mətnləri" haqqında rəy | məqalə | Coğrafiya fakültəsinin tələbələri üçün yeni dərs vəsaiti.Dil və ədəbiyyat Beynəlxalq elmi-nəzəri jurnal, 1(101), Bakı, 2017, səh. 443 | |
| 5 | M.P.Vaqifin əsərlərində şəxs adları. | məqalə | Görkəmli Azərbaycan şairi və ictimai xadimi M.P.Vaqifin 300 illik yubileyinə həsr olunmuş "Vaqif və müasirlik" Respublika elmi- | |

| | | | | |
|---|---|---|---|---|
| | | | nəzəri konfransı.Bakı, 2017.səh.58-63. | |

**İş. Milli kurikulum və müasir dərs.**

**Mərhələ3. Ali təhsil pilləsinin dövlət standartı və proqramları və ana dilinin tədrisi**.

**5.İcraçı: dos. Ə.H.Cavadov**

"Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"na uyğun hazırlanmış "Ali təhsil pilləsinin dövlət standartı və proqramı" dövrün tələbi kimi meydana çıxmış konseptual sənəddir. O, ali təhsilin məqsəd və vəzifələrini müəyyənləşdirir və istisnasız olaraq, bütün təhsil müəssisələrinə şamil edilir. Sənədin diqqətlə öyrənilməsi bu nəticəyə gəlməyə əsas verir ki, ali təhsilin dövlət standartı ali təhsilin səviyyələri üzrə təhsilin məzmunu tam əhatə edir və müxtəlif ixtisaslar üzrə yüksək səviyyəli elmi və elmi-pedaqoji kadrların hazırlanmasına xidmət göstərir.

Dövlət standartları ali təhsil pilləsinin müvafiq səviyyələri üzrə təhsil proqramlarının (kurikulumların) hazırlanması üçün əsas rolunu oynayır, eyni zamanda, müasir təlimin tələblərinə cavab verən fənn kurikulumlarının meydana çıxmasını şərtləndirir.

Tədqiqat nətisində müəyyənləşdirilmişdir ki, digər fənlərlə yanaşı, təlim nəticələrini və məzmun standartlarını, həftəlik dərs və dərsdənkənar məşğələ saatlarının miqdarını, pedaqoji prosesin tamlığını, təlim nəticələrinin qiymətləndirilməsi və monitorinqinin aparılmasını özündə əks etdirən dövlət sənədi—ana dilinin tədrisi proqramı hazırlanmış və uğurla tətbiq edilməkdədir. Dövlət standartına əsaslanan fənn kurikulumu üzrə qüvvədə olan bu proqram ana dilinin maneəsiz olaraq işlənməsini, öyrənilməsini və tətbiqini tam əhatə edir. Təhsil proqramları nümunəvi tədris planı, işçi-tədris planı (sillabuslar), dərsliklər, metodik göstərişlər, mühazirə mətnləri, tövsiyələr, layihələr, təlimin texniki vasitələrinin bilavasitə müşayiəti ilə həyata keçirilir.

1. Vaqif poeziyasının tabeli mürəkkəb cümlə sistemi.Böüuk Azərbaycan şairi Mola Pənah Vaqifin 300 illik yubileyinə həsr olunmuş «M.P.Vaqif və müasirlik» mövzusunda Respublika elmi-praktik konfransının materialları. Bakı,7 dekabr 2017. səh. 40-43 (məqalə)
2. Oğuzaqədərri Abidələrin dilində tabeli mürrəkəb cümlə tipləri. Dil və ədəbiyyat, beynəlxalq elmi-nəzəri jurnal 3(103), Bakı, 2017,səh.23-25 (məqalə)

3. Azərbaycan dili və Nitq mədəniyyəti.(Ali məktəblər üçün dərslik). Bakı, 2017.(dərslik).

**İş. Ümumi təhsil səviyyələri üzrə əldə edilən təlim nəticələri.**

**Mərhələ3. Ali təhsil üzrə əldə edilən təlim nəticələri.**

**6.İcraçı: dos. İ.İ.Şəmsizadə, Dos.Ş.C.Abdullayeva**

Ölkə iqtisadiyyatının davamlı inkişafını təmin etmək üçün bizə nailiyyətlərimizin dərin təhlili, yeni təkliflər və yeni ideyalar lazımdır. Yuxarıda göstərilən problemlərin həlli istiqamətində modern Ali məktəbləri müasir tələblərin ehtiyacına uyğun istiqamətdə inkişaf etdirmək məqsədilə aşağıdakı tədbirlərin görülməsi vacib hesab edilir:

Ali məktəblərdə, elm və təhsil məktəblərindəki alimləri üç kateqoriyada - alman modelinə uyğun qiymətləndirmək olar: nəzəri, alim kabinet: nəzəri-praktik alim və nəzəri-praktik bilikləri ictimaiyyətə açıqlaya biləcək ekspert-alim. Bu kateqoriya üzrə alimlərin əməkhaqqı da fərqli formada tətbiq olunmalıdır;

İctimai elmlər sahəsində ölkəmizin xaricdə tanınmasında təsiri olacaq məqalə və kitabların xarici dilə tərcüməsini təşkil etmək;

İctimaielmlərininkişafınıgücləndirməkməqsədilə"İctimaielmlərədəstəkfondu " yaradılmalıdır;

İctimaielmlərinmüasirvəziyyətivəinkişafkonsepsiyasınıhazırlamaqməqsədiilə"Təhsil-elm-dövlətvəişdünyasıiləəməkdaşlıq" I ÜmumrespublikaForumununkeçirilməsiməqsədəuyğundur;

İctimaielmlərininkişafındaəməyiolanelmxadimlərinəhərilmüsabiqəyoluiləmükafatlarvermək;

İctimaielmlərsahəsindəməşğulolanelmiməktəblərinAzərbaycanictimaiyyətin ətanınmasıməqsədilə KİV-dəonlarınişıqlandırılması.

**Dos.İ.İ.Şəmsizadənin 2017-ci ildə çap olunmuş məqalələrinin**

1. S.Vurğunun "Vaqif" dramının dil materialının leksik – semantik xüsusiyyətləri. "Dil və ədəbiyyat" (Beynəlxalq elmi-nəzəri jurnal), 3 (103), Bakı, 2017, səh. 116-118

2. Cəlil Məmmədquluzadə nəşrində tipik kəndli obrazlarının təhlili. "Filologiya məsələləri" jurnalı, № 14, Bakı, 2017, "Elm və Təhsil" nəşriyyatı

**Dos.Ş.C.Abdullayevanın 2017-ci ildə çap olunmuş məqalələrinin**

1. "Xalqına, vətəninə bağlı, vətənpərvərlik etalonu olan böyük yazıçı". M.P.Vaqifin 300 illik yubileyinə həsr olunmuş "Vaqif və müasirlik" mövzusunda Respublika elmi-praktik konfrans, Bakı, 2017
2. "Zamansız sənətkar". "Filologiya məsələləri" jurnalı, № 14, Bakı, 2017, "Elm və Təhsil" nəşriyyatı

**İş. Müasir linqvistikada metafora nəzəriyyəsi.**

**Mərhələ3. Erl Mak Kormakın koqnitiv metafora nəzəriyyəsi**.

7. **İcraçı: dos. M.Ə.Abdullayeva.**

Elmi işdə göstərilir ki, Qərb alimləri metaforaya idraki fenomen kimi yanaşırlar və ona görə də Mak Kormak yalnız şairlərin deyil, daha çox filosofların və psixoloqların baxışlarını nəzərə alır. O deyir ki, metaforanı idraki proes kimi izah etmək üçün dili formalaşdıran struktur olaraq insan ağlının dərin səviyyələrinin mövcud olduğunu düşünmək vacibdir. Mak KorKormakın yanaşmasında metaforanın semantik referentləri arasında oxşarlıq olduğu kimi, həm də onlar arasında uyğunsuzluğun olması da lazımdır, çünki metafora yeni anlayış üçün , yəni suqgestivlik üçün yaradılır. Alim metaforanın semantik və koqnitiv səviyyələrini nəzərə alır və semantik prosesin əsasında koqnitiv prosesin durduğunu deyir. O, metaforanın dərkində hətta qeyri-verbal idraki (koqnitiv)

funksiyaların mövcud olduğunu deyir, belə ki, rəssamlar sözlərdən istifadə etmədən onların vasitəsilə özlərinin duyğu və təəssüratlarını ifadə edirlər. Elmi işdə deyilir ki, Mak KorMak metaforanın yaranmasında iştirak edən koqnitiv prosesin bir-birini istisna etməyən ideal konstruksiyalarının üç səviyyəsini göstərir:1.Səthi dil; 2.Semantika və sintaksis; 3.İdrak. Mak KorMak bu iyerarxik səviyyələri metaforanı yaradan koqnitiv prosesi anlamağa yardım edən evristik mexanizm adlandırır. Alim metafora nəzəriyyəsinin əsasında nəinki qarşılıqlı koqnitiv təsiri, həmçinin sahələrarası təsiri – fəlsəfə ilə psixologiyanın qarşılıqlı təsirini təməl olaraq götürür.

**2017-ci ildə çap olunan əsərlər:**

1.Nəsiminin bədii fəlsəfi dünyagörüşünün elmi əsasları. III Beynəlxalq Elmi Konfransın materialları.AMEA, 23-24 iyun,2017. (**Məqalə**)

2.Təsəvvüfdə "qəm" və "məstlik" anlayışlarının konseptual mahiyyəti. III Beynəlxalq Həmzə Nigari Türk Dünyası Mədəni İrsi Simpoziumunun materialları.Şamaxı, 17-18 may, 2017. (**Məqalə**)

3.Əli bəy Hüseynzadə fenomeninə qıza nəzər. «Füyuzat»№2 (94), 2017.(**Məqalə)**

4.Özünü tanıma. «Füyuzat»№4(90), 2016. (Qeyd olunmayıb . **Məqalə**)

5. Qadın fəlsəfəsi. «İşıq» (**Məqalə çapda**)

6. Humanist pedaqogikanın fəlsəfi əsasları.(Çapda, **məqalə**)

7.AXC dövründə dil, tədris və məktəb məsələləri. Bakı Universiteti nəşriyyatı, 2017. (**Dərs vəsaiti**) (E.Məmmədov ilə şərikli)

**İş. Azərbaycan dilinin tədrisi tarixinin metodoloji problemləri**
**Maddə 3. Azərbaycan dilinin tədrisi 30-60-cı illərin (XX əsr) siyasi şuraitində.**
**8.İcraçı: dos. S.Ş.Mustafayeva**

Elmi işdə, adına uyğun olaraq Azərbaycan dili tədrisi tarixinin metodoloji problemlərindən danışılır. 2017-ci ildə XX əsrin oprtalarında yəni, 1930-60-cı illər ərəfəsində Azərbaycan dilinin tədrisi prosesində baş verən dəyişikliklərdən, tədrisin səviyyəsini yüksəltmək məqsədi ilə görülən işlərdən bəhs olunur.

Müəllif nəzərdə tutur ki, XX əsrin ortalarında təhsildəki çətinliklər, onların aradan qaldırılması üzrə aparılan işlərin nəticəsi olaraq, 30-cu illərdən öz həllini tapmağa başlayır

Əvvəlcə, əsrin ortalarında təhsildəki geriliyin aradan qaldırılması məqsədi ilə üç istiqamətdə işin aparılması- bir tərəfdən proqram və dərsliklərin çap edilməsi, digər tərəfdən isə metodiki əsərlərin hazırlanması və təhsilə kömək məqsədi ilə fəal pedaqoji işin aparılması prosesi izah edilir.

İşdə, Azərbaycan (türk) təhsil sistemi üçün ziyanlı bir üsul olan, ana dili başda olmaqla bütün fənlərin məktəbdə tədrisini ləğv etməyə çalışan "Layihələr metodu" və "briqada-laborator" adlanan təlim sisteminin zərərli cəhətləri təhlil olunur. Müəyyənləşdirilir ki, 1932-ci ildə "Türk dili və ədəbiyyatı" proqramının nəşri tədrisdə bir canlanma yaradır. Metodik əsərlərin hazırlanıb çap edilməsi müntəzəm xarakter alır. Həmin il prof. B.Çobanzadə C.Məmmədquluzadə ilə birlikdə "Türk dilinin metodikası" adlı əsəri hazirlayıb çap etdirirlər. Bir-birinin ardınca təlim qaydaları və məktəblər haqqında qərarlar qəbul olunur.

Eyni zamanda, həmin qərarlardan sonra pedaqoji mətbuatda Azərbaycan dili tədrisinin müxtəlif sahələrinə dair məqalələr yazılıb nəşr olunmağa başlayır. Dərsliklərin hazırlanması müntəzəm xarakter alır. Azərbaycan dili tədrisinin tarixini elmi surətdə araşdirib tədqiq edən görkəmli alim A,Abdullayev "Azərbaycan dilinin tədrisi tarixindən" əsərini ( 1966-cı ildə) yazıb çap etdirir.

1950-60-cı illərdə Azərbaycan dilinin tədrisi metodikası sahəsi üzrə çap olunan metodik əsərlərin sayının artması və təhsilə xüsusi diqqət yetirilməsi Azərbaycan dilinin tədrisində yüksəlişə səbəb oldu.

**2017-ci ildə çap olunan əsərlər:**

**1.**Azərbaycan dili tarixinin araşdırılmasında professor Əzəl Dəmirçizidə mərhələsi. Dil və ədəbiyyat jurnalı 3(103) Bakı 2017. Səh.94-97.(məqalə)

**İş D: Azərb. dilində nitqin formaları**

**Mərhələ 3. Nitqin dilin yazılı forması və xüsusiyyətləri**

**9. İcraçı: dos. Ş.X.Əliyeva**

«Yazılı nitqin inkişaf etdirilməsi» mövzusunda elmi-planı işim üç paraqrafdan ibarətdir.

1-ci paraqraf şifahi nitqin yazılı nitq, oxşar və fərqli cəhətləri adlanır. Burada şifahi və yazılı nitq arasında qarşılıqlı əlaqə ilə yanaşı mövcud fərqlər də göstərilmiş, təlim prosesində şagirdlərin şifahi və yazılı nitqinin inkişafı üzrə məqsədyönlü işlərin aparılması yolları izah edilmişdir.

2-ci paraqrafda yazılı ədəbi dili inkişaf etdirmək üçün orfoqrafik normaların mənimsədilməsinin zəruriliyindən bəhs edilmiş, normalar sistemindən danışılmışdır.

3-cü paraqrafda yazılı nitqin inkişafını təmin etmək üçün Azərbaycan dili dərslərində aparılan yazı növləri, onların əsas xüsusiyyətləri aydınlaşdırılmış, şagirdlərin düzgün yazı vərdişlərinə yiyələnməsində yazı işlərinin xüsusi əhəmiyyətə malik olması göstərilmişdir.

**2017-ci ildə çap olunan əsərlər:**

**1**. Şagirdlərdə yazılı nitqin inkişaf etdirilməsi üsulları. Filologiya məsələləri.№16, Bakı.2017.səh.20-29.

2. Orfoepik normaların öyrədilməsi yolları. Dil və ədəbiyyat4(104), Bakı,2017.səh.456-458.

**İş. Azərbaycan təsəvvüf ədəbiyyatı.**

**Mərhələ3. XV –XVI əsrlər Azərbaycan təsəvvüf şeiri**

**10.İcraçı: F.ü.f.d.,dos.əv. E.H.Məmmədov**

Məlumdur ki, Azərbaycan poeziyasının əsas estetik mənbələrindən biri də təsəvvüf fəlsəfi təlimidir. Türk-islam mədəniyyətinin formalaşması və inkişafında təsəvvüfün çox böyük rolu olmuşdur. Təsəvvüfün sənətlə, xüsusən, poeziya ilə mədəni-estetik əlaqəsində bir-birindən fərqlənən müxtəlif inkişaf mərhələləri mövcuddur ki, bu mərhələlərdən biri də XV –XVI əsrlərdir.

Elmi işdə XV –XVI əsrlər Azərbaycan təsəvvüf ədəbiyyatının əsas nümayəndələri olan Həbibi,Kişvəri, Xətai və Füzulinin ədəbi irsi təhlil olunaraq, təsəvvüfün onların yaradıcılığındakı bir-birindən fərqli və ümumi

funksional xüsusiyyətlər müəyyənləşdirilmiş, bu dövrdə bədii fikrin poetik fəlsəfədən fəlsəfi poeziyaya doğru inkişafı əsaslandırılmışdır.

**2017-ci ildə çap olunmuş elmi əsərləri:**

**1.**XIX əsrin sonu – XX əsrin əvvələrində Azərbaycan dilinin tarixi orfoqrafiya məsələlərinə münasibət. Akademik Ağamusa Axundovun 85 illiyinə həsr olunmuş Beynəlxalq Konfransın materialları Bakı, 24-25 aprel.2017-ci il.səh.310-314 (məqalə).Həm də bu konfransın təşkilatçısı olub.

2. İslam Həmrəyliyi – 2017: Reallıqlar və Perspektivlər mövzusunda Respublika Elmi- metodik konfransının materialları.Bakı,25-26,aprel. 2017.səh.268-269 (tezis). Həm də bu konfransın təşkilatçısı olub.

3. 1 məqalədə çapdadır.

**4.** AXC dövründə dil, tədris və məktəb məsələləri. Bakı Universiteti nəşriyyatı, 2017. (Dərs vəsaiti, M.Abdullayeva ilə şərikli)

**İş. Milli kurikulum və yeni təlim strateqiyaları .**

**Mərhələ3. Azərbaycan dili üzrə fəal interaktiv dərsin mərhələləri.**

**11. İcraçı: müəllim S.H.Rzayeva.**

Elmi iş "Azərbaycan dili üzrə fəal-interaktiv dərsin mərhələləri" adlanır. Bu mənada, elmi plan işinin mövzusu öz aktuallığı ilə diqqət çəkir. Elmi iş iki fəsildən ibarətdir. Üç yarımfəsildən ibarət olan I fəsil "Fəal-interaktiv təlimin mahiyyəti və mexanizmləri", ikinci fəsil isə "Fəal-interaktiv dərsin mərhələləri" adlanır. Sonda mövzu üzrə istinad edilmiş elmi ədəbiyyatlar təqdim edilmişdir.

Bu gün "gələcəyimiz" adlandırdığımız uşaqlar və gənclər bizim sabahımız və davamçılarımızdır. XXI əsrin uşaqlarının xoşbəxt gələcəyinin təməli bu gün təlim tərbiyə ocaqlarında – məktəblərdə qoyulur. Əgər biz bu gün uşaqlardan dediklərimizi yerinə yetirməyi tələb edir, lakin onlara özləri bildiyi kimi hərəkət etməyə, müstəqil düşünməyə imkan vermiriksə, buna heç bir əlverişli şərait yaratmırıqsa, deməli, elə özümüz öz gələcəyimizin həqiqi demokratik ideyalara yiyələnməsinin qarşısına sədd çəkirik.

Bu gün tədris ocağı adlandırdığımız məktəblərdə şagirdlərə elə bir sərbəstlik verilməlidir ki, onlar gələcəkdə hər hansı bir idarəetmə işində çalışanda azadlığın

nə demək olduğunu bilsinlər. Şagirdlərdə özünə inam hissi o zaman formalaşır ki, onlar sinfin və məktəbin həyatında baş verən təşkilati işlərdə yaxından iştirak edir, öyrənmə prosesində onlara sərbəstlik verilir.

**2017-ci ildə çap olunmuş əsərlərin siyahısı**

1. Fəal – interaktiv təlimin mahiyyəti, məzmunu və üsulları.Filologiya məsələləri №16 , «Elm və təhsil», Bakı, 2017.səh.203-209.
2. Azərbaycan dili üzrə fəal -interaktiv dərsin mərhələləri. Görkəmli Azərbaycan şairi və ictimai xadimi M.P.Vaqifin 300 illik yubileyinə həsr olunmuş "Vaqif və müasirlik" Respublika elmi-nəzəri konfransı.Bakı, 2017.səh.415-418.

**İş. Orta məktəbin Azərbaycan dili dərslərində nitq mədəniyyətinin inkişaf etdirilməsi məsələləri.**
**Mərhələ3. Orta məktəbin X və XI siniflərində Azərbaycan dili dərslərində nitq mədəniyyətinin inkişaf etdirilməsi məsələləri**.
**12. İcraçı: Baş müəllim G.N.Abbasova.**

Müasir dövrdə orta məktəblərdə istər ana dilinin, istərsə də əlavə dilin tədrisi qarşısında duran mühüm vəzifələrindən biri yetişən nəslin nitq mədəniyyətini və rabitəli nitqini inkişaf etdirməkdir. Tədqiqatlar göstərir ki, nitq mədəniyyəti üçün dil normaları aparıcı meyar rolunu oynayır. Bundan əlavə, tədqiqatçılar çox zaman orfoqrafiya və orfoepiya qaydalarını da bu sahəyə aid edirlər, üslubiyyat, tərcümə, terminologiya da sıx bağlılığa malikdir. Fikrimizcə nitq mədəniyyəti dilin bütün yaruslarını əhatə edir. Deməli nitq mədəniyyətinin inkişaf etdirilməsi üçün bilavasitə dilin fonetikası, leksikası, qrammatikası, üslubiyyatına dair zəruri bilikləri almağı tələb edir.

Nitq mədəniyyəti və rabitəli nitq məsələləri həm şifahi, həm də yazılı nitqi əhatə edir, şagirdlər öz fikir və arzularını sərbəst və aydın şəkildə ifadə etməyi bacarmalı və bu zaman dil vasitələrindən bacarıqla istifadə etməli, yeksənəkliyə, təkrara, izafi informasiyanın ötürülməsinə yol verməməlidir.

XI sinif şagirdlərə Azərbaycan dilinin funksional üslubları: bədii üslub, elmi üslub, publisistik üslub, məişət üslubu, rəsmi-işgüzar üslub, funksional üslubların təzahür formaları, fərdi üslub öyrədilir. Şagird üslubiyyatı dilçilik elminin bir

şöbəsi kimi fərqləndirməyi və funksional üslubları bir-birindən fərqləndirməyi, fərdi üslubu ayırmağı bacarmalıdır.

Orta məktəbin X-XI siniflərində şagirdlərə mürəkkəb ərizələr, protokol, cürbəcür arayış və vəsiqələr, məktub, hesabat, referat, iş planı yazmağı öyrətmək məsləhətdir.

X sinif şagirdləri üçün ən mürəkkəb şifahi çıxışlardan biri məruzə etməkdir. Şagird müəllimdən həmin mövzuya aid müvafiq göstəriş alaraq, hansı ədəbiyyatdan istifadə edəcəyini müəyyən edir.

Azərbaycan dili ümumtəhsil məktəblərində tədris olunmaqla şagirdlərdə nitq mədəniyyətinin formalaşmasına xidmət edir. Onlar bu fənn vasitəsilə ana dilini öyrənir, onun səs sisteminə, lüğət ehtiyatına, üslubi-qrammatik xüsusiyyətlərinə yaxından bələd olur, elmi, bədii, publisistik və digər üslublarda yaradılmış ədəbiyyat nümunələri ilə tanış olmaq imkanı qazanırlar.

**2017-ci ildə çap olunmuş məqalələr**

1. Əli Kərim poeziyasının dilində antonimlərin üslubi semantik əlamətləri. Filologiya məsələləri, № 16, Bakı, 2017.səh.184-192.
2. Sözün nominativ funksiyadan poetik funksiyaya keçməsində kontekst amili (Əli Kərimin şeir dili əsasında). Filologiya məsələləri, № 16, Bakı, 2017.səh.207-215.

**13. S.F.Nağıyeva, f.ü.f.d., müəllim, 0,5 ştat**.

**2017-ci ildə çap olunmuş əsərlərin siyahısı**

1.Rus dili leksikasında işlənən Türk mənşəli sözlər.M.P.Vaqifin 300 illiyinə həsr olunmuş Beynəlxalq Elmi konfransın materialları.BDU nəşri, 2017.(Rəhilə Quliyeva ilə birgə) səh.308-311

2.M.Ə.Rəsulzadənin «Stalinlə ixtilal xatirələri» sesuarında ictimai –siyasi mühitin analizi. M.P.Vaqifin 300 illiyinə həsr olunmuş Beynəlxalq Elmi konfransın materialları.BDU nəşri, 2017) səh.150-152.

**4. DƏRC OLUNMUŞ ELMİ İŞLƏRİN XARAKTERİSTİKASI.**

Hesabat dövründə 30 məqalə, 1 kitab şərikli, 1 dərslik, 2 dərs vəsaiti şərikli, 1 tezis və çap olunmuşdur.Məqalələr Azərbaycan dilinin və ədəbiyyatının nəzəri və tədrisi məsələlərinə həsr olunmuşdur. Kafedranın ümumi balı 968 baldır.

**5. QRANTLAR ƏSASINDA YERİNƏ YETİRİLƏN ELMİ-TƏDQİQAT İŞLƏRİ**–Yoxdur.

**6. AMEA İLƏ ELMİ ƏLAQƏLƏR** – Vardır : Kafedranın əməkdaşları vaxtaşırı AMEA–ya ixtisasartırmaya gedirlər. AMEA–da keçirilən konfranslarda, seminarlarda iştirak edirlər.

**7. XARİCİ DÖVLƏTLƏRİN TƏHSİL VƏ ELMİ MÜƏSSİSƏLƏRİ İLƏ ƏLAQƏLƏR.** Vardır:**1.Rəhilə Quliyeva.** VIII Uluslararası Türk Dili Kurultayı. Bildiri Özetleri.Ankara, 2017-ci il Rəhilə Quliyeva bu kurultayda Ankarada iştirak edib və bu məruzəynən iştirak edib, mövzusunun adı: Azerbaycan Türkçesinde Fiil Çatıları üzerine bir değerlendirme.

**8. ELMİ–TƏDQİQAT İŞLƏRİNİN NƏTİCƏLƏRİNİN TƏTBİQİ.**

Elmi–tədqiqat işlərinin nəticələri ali və orta məktəb dərsliklərinin tərtibində istifadə oluna bilər.

**9.PATENT VƏ İNFORMASİYA İŞLƏRİ**–Yoxdur.

**10. DÖVLƏT PROQRAMLARININ İCRASI**: Kafedrada 2016-2017-cı illər üçün nəzərdə tutulmuş elmi plan işinin əsasında 2018-ci ilin elmi iş planı tərtib edilmiş və hər bir müəllimə konkret iş tapşırılmışdır.

**11. FAKÜLTƏDƏ KEÇİRİLMİŞ ELMİ KONFRANSLARIN, SEMİNARLARIN, SİMPOZİUMLARIN XARAKTERİSTİKASI.**

Kafedranın üzvləri fakültədə və universitetde keçirilən bir sıra elmi konfransların təşkilində iştirak elmişlər.

**Dos. Rəhilə Quliyeva:**

**1.** VIII Uluslararası Türk Dili Kurultayı. Bildiri Özetleri.Ankara, 2017-ci il Rəhilə Quliyeva vu kurultayda Ankarada iştirak edib.

**2.** Akademik Ağamusa Axundovun 85 illiyinə həsr olunmuş Beynəlxalq Elmi konfransın materialları.«Elm» nəşiryyatı, Bakı, 2017.

**Dos. M.Qurbanova**:

1 Görkəmli Azərbaycan şairi və ictimai xadimi M.P.Vaqifin 300 illik yubileyinə həsr olunmuş "Vaqif və müasirlik" Respublika elmi-nəzəri konfransı.Bakı, 2017.

**Dos. Ə.H.Cavadov:** Görkəmli Azərbaycan şairi və ictimai xadimi M.P.Vaqifin 300 illik yubileyinə həsr olunmuş "Vaqif və müasirlik" Respublika elmi-nəzəri konfransı.Bakı, 2017

**Dos. M.Abdullayeva:** 1.Nəsiminin bədii fəlsəfi dünyagörüşünün elmi əsasları. III Beynəlxalq Elmi Konfransın materialları.AMEA, 23-24 iyun,2017.

2.Təsəvvüfdə "qəm" və "məstlik" anlayışlarının konseptual mahiyyəti. III Beynəlxalq Həmzə Nigari Türk Dünyası Mədəni İrsi Simpoziumunun materialları.Şamaxı, 17-18 may, 2017.

**Dos.Ş.Abdullayeva:** Görkəmli Azərbaycan şairi və ictimai xadimi M.P.Vaqifin 300 illik yubileyinə həsr olunmuş "Vaqif və müasirlik" Respublika elmi-nəzəri konfransı.Bakı, 2017.

**Dos.əv. E.H.Məmmədov:**

1.XIX əsrin sonu – XX əsrin əvvələrində Azərbaycan dilinin tarixi orfoqrafiya məsələlərinə münasibət. Akademik Ağamusa Axundovun 85 illiyinə həsr olunmuş Beynəlxalq Konfransın materialları Bakı, 24-25 aprel.2017-ci il.səh.310-314 (məqalə).Həm də bu konfransın təşkilatçısı olub.

2. İslam Həmrəyliyi – 2017: Reallıqlar və Perspektivlər mövzusunda Respublika Elmi- metodik konfransının materialları.Bakı,25-26 aprel. 2017.səh.268-269 (tezis). Həm də bu konfransın təşkilatçısı olub.

**Dos. Sevda Rzayeva:** Görkəmli Azərbaycan şairi və ictimai xadimi M.P.Vaqifin 300 illik yubileyinə həsr olunmuş "Vaqif və müasirlik" Respublika elmi-nəzəri konfransı.Bakı, 2017

**Dos. Səidə Nağıyeva :** Görkəmli Azərbaycan şairi və ictimai xadimi M.P.Vaqifin 300 illik yubileyinə həsr olunmuş "Vaqif və müasirlik" Respublika elmi-nəzəri konfransı.Bakı, 2017

**12. FAKÜLTƏDƏ ELMİ VƏ ELMİ – PEDAQOJİ KADRLARIN HAZIRLANMASI.**

Kafedrada gənc işçilərin müəllim kimi hazırlanmasına diqqət yetirilir. Hal-hazırda kafedrada müəllim işləyən elmi dərəcəli ve elmi adı olan müəllimlərin bir çoxu kafedranın yetirmələridir.

**13.DİSSERTASİYA MÜDAFİƏSİ VƏ DİSSERTASİYA ŞURALARININ FƏALİYYƏTİ.**

Dos. Rəhilə Quliyeva və dos. Mətanət Abdullayeva Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən D.02.181.Dissertasiya şurası yanında Elmi seminarın üzvüdürlər.

**14. TƏLƏBƏLƏRİN VƏ GƏNC TƏDQİQATÇILARIN (MAGİSTRLƏRİN) ELMİ- TƏDQİQAT İŞLƏRİ (KONFRANSDA İŞTİRAKI).**

**1.Qəfərova Nənəxanım Əlikömək qızı.( magistr II kurs):** Azərbaycan xalqının ümumilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş Filologiyanın aktual problemləri mövzusunda Respublika elmi-nəzəri konfransının materialları. Bakı, 2017.

**Mövzu:** Tabeli mürəkkəb cümlənin tədrisində fəal təlim metodlarından istifadə. 6 səh.

2. **Babayeva Türkan Arzu qızı. ( magistr II kurs):** Azərbaycan xalqının ümumilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş Filologiyanın aktual problemləri mövzusunda Respublika elmi-nəzəri konfransının materialları. Bakı, 2017.

**Mövzu:** İsmin hal kateqoriyasının tədrisi zamanı interaktiv təlimdə istifadə olunan iş üsulları**.** 3 səh.

**15. 2017-cı İLDƏ HANSI AVADANLIQLARIN ALINMASINA EHTİYAC DUYULUR.**Kafedranın kompyuterə ehtiyacı var.

**16. ƏSAS NƏTİCƏLƏR VƏ TƏKLİFLƏR.**

Kafedranın müəllimlərinin əksəriyyəti pedaqoji işlə, bir çoxu isə ciddi

elmi- tədqiqatla  məşğuldur. Yaxşı olar ki, maaşlar pedaqoji iş üçün ayrı, elmi işlər üçün ayrı verilsin.

**Kafedra müdiri:** **prof.H.A.Əsgərov**